**Cavanşir Hacı oğlu HACIYEV,** i.ü.f.d. dosent
Qərbi Kaspi Universiteti
E-mail: cavanshir.haciliyev@wcu.edu.az

# HEYDƏR ƏLİYEV VƏ VERGİ SİYASƏTİ

**Xülasə**

Azərbaycanın vergi sistemində əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasət kursu 1993-1999 və 1999-2003-cü illəri əhatə edir. 2000-ci ildə Vergilər Nazirliyinin yaradılması, 2001-ci ildə isə Vergi Məcəlləsinin qüvvəyə minməsi bilavasitə ulu öndər Heydər Əliyevin rəhbərliyi və tövsiyələri ilə baş vermişdir. Həmin dövrdə aparılan islahatlar nəticəsində inflyasiya və büdcə kəsiri minimuma endirilib, iqtisadi artıma nail olunub. Müasir vergi sisteminin banisi ulu öndər Heydər Əliyevin müəyyən etdiyi iqtisadi strategiya hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**Açar sözlər:** Vergi siyasəti, büdcə gəlirləri, makro iqtisadiyyat, istehsal, xidmət, maliyyə - kredit, Vergi Məcəlləsi

**JEL:** H 22
**DOI:** 10.54414/QFTW9286

**Giriş**

Mayın 10 - da Azərbaycan xalqının böyük oğlu, ulu öndər, ümummilli lider Heydər Əliyevin 100-cü ildönümü qeyd edilir. Müasir Azərbaycanın qurucusu, dahi şəxsiyyət, uzaqgörən siyasətçi Azərbaycan xalqının yaddaşında daim yaşayır və onun ölkəmizin tərəqqisi istiqamətində atdığı addımlar və gördüyü işlərin nə qədər böyük və əzəmətli olduğu dərk edilir. Azərbaycanda aparılan iqtisadi islahatların, o cümlədən bu islahatların ayrılmaz tərkib hissəsi olan vergi siyasətində köklü dəyişikliklər dövrünün mühüm bir zaman kəsiyi ümumilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məlum olduğu kimi, vergi siyasətinin əsas məqsədi büdcə gəlirlərini təmin etməklə yanaşı, ölkə iqtisadiyyatının inkişafını sürətləndirmək, əlverişli investisiya mühiti yaratmaq və sahibkarlıq fəaliyyətini stimullaşdırmaqdan ibarətdir. Bu baxımdan ulu öndərimiz Heydər Əliyevin vergi siyasətinin təkmilləşdirilməsi istiqamətindəki xidmətləri xüsusi vurğulanmalıdır.

Tarixə nəzər salsaq, ümumiili lider Heydər Əliyevin Azərbaycanın vergi sisteminin dünya standartlarına uyğunlaşdırılması istiqamətində əsasını qoyduğu siyasət kursunu şərti olaraq iki mərhələyə bölmək olar :

**Əsas mətn**

Birinci mərhələ 1993-1999-cu illəri əhatə edir.

Bu dövrdə yeridilən iqtisadi siyasətin əsas məqsədi ölkənin iqtisadi xaosdan çıxarılmasına, makroiqtisadi sabitliyin möhkəmləndirrilməsinə, əlverişli investisiya mühitinin yaradılmasına, milli istehsalın artırılmasına nail olmaqdan ibarət idi. O zaman respublikada həyata keçirilən irimiqyaslı özəlləşdirmə prosesi kompleks islahatların tərkib hissəsi kimi vergilər sahəsində də köklü dəyişikliklər aparılmışdır. Aparılan uğurlu islahatlar nəticəsində inflyasiya və büdcə kəsiri minimuma endirilmiş, ötən əsrin doxsanıncı illərinin birinci yarısında iqtisadiyyatda mövcud geriliyin qarşısı ahnmış və uzunmüddətli böhrandan sonra iqtisadi artıma nail olunmuşdur. Bu nailiyyətlər ümumilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və ötən dövrdə uğurla həyata keçirdiyi iqtisadi siyasətin, yəni azad bazar münasibətlərinə keçidin real nəticəsidir.

Deyilənləri təsdiq etmək üçün Azərbaycan Respublikası Prezidentinin 17 iyun 1996-cı il tarixli «İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə» və 7 yanvar 1997-ci il tarixli «Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni manelərin aradan qaldırılması haqqında» fərmanları ilə vergi orqanlarının qarşısında çox

mühüm vəzifələr qoymuşdur ki, həmin dövrdən başlayaraq ümumi daxili məhsulun həcmi ilbəil artmış, ÜDM - in formalaşması prosesində qeyri dövlət sektorunun payı və vergi daxilolmalarının həcmi artmışdır.

Ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən vergi siyasəti kursunun ikinci mərhələsi 1999-cu ildən sonrakı dövrü əhatə edir.

1999-cu ildən başlayaraq respublikamızda vergi sisteminin kompleks islahatlarının planı işlənib hazırlanmış və ulu öndərin birbaşa tövsiyyələri ilə icra olunmağa başlamışdır.

Müasir vergi sisteminin formalaşdırılması sahəsində ümummilli lider Heydər Əliyevin qərarı ilə yeni inkişaf mərhələsinə Vergilər Nazirliyinin yaradılması ilə start verildi. Azərbaycan Respublikası prezidentinin 11 fevral 2000-ci il tarixli fərmanına əsasən Baş Dövlət Vergi müfəttişliyinin bazasında Azərbaycan Respublikası Vergilər Nazirliyi yaradıldı.

Vergi sahəsində əldə edilmiş ən böyük uğurlar sırasına, ilk növbədə, 2001-ci ildə Vergi Məsəlləsinin qəbul edilməsi və təkmil qanunvericilik bazasının yaradılması daxildir. Vergi Məcəlləsinin qəbul edilməsi islahatların genişləndirilməsi üçün təkan rolunu oynadı. Bu dövrə qədər vergi siyasəti faktiki olaraq vergitutma sahəsində qəbul edilmiş bir sıra qanunlar və digər normativ-hüquqi aktlarla tənzimlənirdi ki, onların da çoxu ölkədə aparılan iqtisadi islahatların tələblərinə cavab vermir, bir-birilə ziddiyyət təşkil edir, sahibkarlığın inkişafına maneçilik törədir, investisiya mühitinin cəlbediciliyini təmin etmirdi. Əlbəttə bütün bunlara müasir Azərbaycanın qurucusu, dahi öndərimiz Heydər Əliyevin gərgin əməyi və uzaqgörən siyasəti nəticəsində nail olunmuşdur.

Ümumilli lider Heydər Əliyev respublikada milli istehsalın stimullaşdırılmasına, əlverişli investisiya mühitinin yaradılması və azad rəqabətin təmin olunmasına çox böyük üstünlük verirdi. Bu baxımdan dahi öndərimizin bilavasitə göstərişi əsasında bir sıra qanunlar hazırlanaraq qəbul edilmişdir. Növbəti struktur islahatları Vergilər Nazirliyinin mərkəzi aparatında aparılmışdır. Belə ki, vergi orqanlarının idarəetmə strukturunun təkmilləşdirilməsi məqsədilə, vergilər nazirliyinin mərkəzi aparatının yeni strukturu yaradılmışdır ki, vergi siyasətini daha uğurla həyata keçirməyə imkan versin.

Ümumiili liderimiz Heydər Əliyevin 2002-ci ilin ortalarında yerli və xarici iş adamları ilə keçirdiyi görüşlərdən sonra «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramınm» (2002-2005-cı illər) təsdiq edilməsi haqqında, 2002-ci il 17 avqust «Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqlnda» 2002-ci il 28 sentyabr tarixli «Sahibkarlığın inkişafına mane olar müdaxilələrin qarşısının alınması haqqında» imzaladığı tarixi fərmanlarla dövlət vergi orqanlarının qarşısında bir sıra mühüm vəzifələr qoyulmuşdur. Qeyd edilən fərmanlardan irəli gələn məsələlərin həlli ilə bağlı 2002-ci ilin sonunda Vergilər Nazirliyinin strukturunda əsaslı dəyişikliklər edildi.

Ötən dövrdə vergi sistemində həyata keçirilən kompleks islahatların tərkib hissəsi kimi vergi nəzarətinin təkmilləşdirilməsi istiqamətində də mühüm işlər görülmüşdür. Belə ki, vergi ödəyicilərinin haqlı narazılığına səbəb olan lüzumsuz yoxlamalar aradan qaldırılmış, aparılan yoxlamaların səmərəliliyinin yüksəldilməsi təmin edilmişdir

Ümumilli lider Heydər Əliyevin vergi xidmətinə olan diqqəti və qayğısının nəticəsi olaraq, vergi ödəyicilərinə göstərilən xidmətin yüksək səviyyədə təşkili də vergi sistemində aparılan islahatların mühüm istiqamətlərindəndir. Bu məqsədlə 2000-ci ildə respublikamızın yerli vergi orqanlarında məlumatlandırma şöbələri yaradılmışdır. Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi siyasət kursu bu gün onun layiqli davamçısı, azərbaycan respublikasının prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

2005-ci il Azərbaycanın vergi xidməti üçün keyfiyyətcə yeni bir mərhələnin başlanğıcını qoydu. Belə ki, möhtərəm prezident cənab İlham Əliyevin 12 sentyabr 2005-ci il tarixdə imzaladığı "Vergi inzibatçılığının təkmilləşdirilməsi üzrə dövlət proqramı (2005-2007-ci illər)", həmçinin 21 oktyabr 2005-ci il tarixdə təsdiq etdiyi "Azərbaycan Respublikasında

rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün dövlət proqramının (elektron azərbaycan) qəbul edilməsi vergi orqanları qarşısında çox mühüm vəzifələr müəyyənləşdirmişdir. Elektron cəmiyyətin formalaşdırılması istiqamətində dövlət siyasətinə çevik reaksiya verən orqanlardan biri məhz vergilər nazirliyi olmuşdur. Bu proqram çərçivəsində 2006-cı il yanvarın 1-dən başlayaraq ölkə üzrə avtomatlaşdırılmış vergi informasiya sistemi (avis) fəal olaraq işə düşmüşdür və onun reallaşdırılması nəticəsində Azərbaycanın vergi xidməti təkcə MDB ölkələri arasında deyil, həm də Şərqi Avropada ən modern informasiya texnologiyasına malik xidmətlərdən birinə çevrilmişdir. Avis layıhəsinin əsas məqsədi sürətli, elastik və yararlı vergi siyasətinin həyata keçirilə bilməsi üçün fəal bir texnologiya dəstəyi təmin etməkdir. Azərbaycanda sahibkarlığın inkişafında mühüm mərhələ olan “bir pəncərə sisteminin 2008-ci ilin əvvəlindən tətbiqi ilə elektron hökümətin əsas elementlərindən olan məlumatların bir mərkəzdə cəmləşdirilməsini,vergi qeydiyyatı da daxil olmaqla bütün inzibati qeydiyyatların tamamilə sinxronlaşdırılmasım həyata keçirilmişdir. İş adamlarının mərkəzi sistemlə avtomatik və davamlı əlaqəsi yaranmışdır. Bu zaman qeydiyyat prosedurlarının sayı azalır və vaxt itkisinin qarşısı alınır. Bu sistem sahibkarlıq sektoruna marağın güclənməsinə və biznesin inkişafına təkan vermişdir. Bu isə son nəticədə ölkədə sahibkarlığın inkişafını sürətləndirmiş, investisiya mühitini daha da yaxşılaşdırmışdır. Vergi xidmətində aparılan sistemli islahatların məqsədi nəticə etibarilə vergilərin yığılmasından vergilərin könüllü ödənilməsi prinsipinə keçilməsinə xidmət edir. Əminliklə söyləmək olar ki, ümummilli liderimiz Heydər Əliyevin uzaq görən siyasəti nəticəsində formalaşmış müasir vergi sisteminin inkişafı hazırda dönməz xarakter almışdır. Odur ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi strategiyanın uğurla həyata keçirilməsi Azərbaycanın sürətli inkişafında öz gözəl bəhrələrini verir. Hər şeydən əvvəl qeyd edim ki, vergi orqanları dövlətin vergi siyasətini həyata keçirən qrumdur və əlbətdə, dövlət büdcəsinin gəlirlərinin formalaşmasına məsul orqan olaraq, vergi gəlirlərinin artırılmasında maraqlı tərəfdir. Lakin ölkəmizdə həyata keçirilən vergi siyasətinin ən vacib elementlərindən biri əlverişli biznes mühitinin yaradılması, dövlətin iqtisadi maraqları ilə yanaşı sahibkarların və vətəndaşların maraqlarına cavab verilməsidir. Bu baxımdan ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu vergi sisteminin indiki inkişafı möhtərəm prezidentimiz İlham Əliyev tərəfindən günün tələbləri səviyyəsində ləyaqətlə davam etdirilir. Son dövrlər vergi qanunvericiliyində aparılmış köklü dəyişikliklər, vergi inzibatçılığının təkmilləşdirilməsi prioritet istiqamətlərdəndir.

**Nəticə**

Ulu öndərimiz Heydər Əliyevin qoyduğu iqtisadi strategiya xəttinin möhtərəm prezidentimiz cənab İlham Əliyev tərəfindən ardıcıl və inamla davam etdirilməsi büdcə daxilolmalarının həcminin artmasına, vergi yükünün aşağı salınması hesabına vergitutma bazasının genişləndirilməsinə, iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılmasma, sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli şəraitin yaradılmasına, son nəticədə mövcud iqtisadi potensialın səmərəli istifadəsinə və əhalinin maddi rifahının yüksəldilməsinə yönəldilmişdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1.Azərbaycan Respublikasının konstitusiyası. Bakı 2009
2. Azərbaycan Respublikasının vergi məcəlləsi. Bakı 2023
3. Azərbaycanın vergi xəbərləri jurnal.
4. “ Vergilər qəzeti” , 2000-2010-cu illər

**Джаваншир Гаджи оглы ГАКИЕВ, к.э.н. доцент**
Западно-Каспийский университет
E-mail:: javanshire.haciliyev@wcu.edu.az

## ГАЙДЕР АЛИЕВ И НАЛОГОВАЯ ПОЛИТИКА

**Резюме**

Политический курс общенационального лидера Гейдара Алиева в налоговой системе Азербайджана охватывает 1993-1999 и 1999-2003 годы. Создание Министерства налогов в 2000 году и вступление в силу Налогового кодекса в 2001 году произошло непосредственно под руководством и рекомендациями великого лидера Гейдара Алиева. В результате проведенных в то время реформ инфляция и дефицит бюджета были сведены к минимуму, достигнут экономический рост. Экономическую стратегию, намеченную великим лидером Гейдаром Алиевым, основоположником современной налоговой системы, в настоящее время успешно продолжает наш Президент господин Алиев. Ильхам Алиев.

**Ключевые слова:** Налоговая политика, доходы бюджета, макроэкономика, производство, услуга.

**Javanshir Haji oglu HACIYEV, PhD of economics**
Western Caspian University
E-mail: javanshir.haciliyev@wcu.edu.az

## HAYDER ALIYEV AND TAX POLICY

**Summary**

The policy course laid by national leader Heydar Aliyev in the tax system of Azerbaijan covers the years 1993-1999 and 1999-2003. The establishment of the Ministry of Taxes in 2000 and the entry into force of the Tax Code in 2001 took place directly under the guidance and recommendations of the great leader Heydar Aliyev. As a result of the reforms carried out at that time, inflation and budget deficit were reduced to a minimum, and economic growth was achieved. The economic strategy set by the great leader Heydar Aliyev, the founder of the modern tax system, is currently being successfully continued by our President Mr. Ilham Aliyev.

**Keywords:** Tax policy, budget revenues, macro economy, production, service, finance - credit, Tax Code

**Daxil olub:** 02.04.2023